**KAMRAN İMANOV**

# ƏTRAF MÜHİT VƏ ƏQLİ MÜLKİYYƏT

**Bakı – 2018**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Ətraf mühit və əqli mülkiyyət. Bakı, 2018**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatı ilə birgə 17 iyun 2010-cu il tarixində "Ətraf mühit və əqli mülkiyyət" mövzusunda seminarda etdiyi eyni adlı çıxışı əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2014, 2015, 2016, 2017, 2018**

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2018**

# ƏTRAF MÜHİT VƏ ƏQLİ MÜLKİYYƏT

18 iyun «İnsan hüquqları günüdür». Bu vacib bayram gününü Azərbaycan xalqı ölkə başçısı cənab İlham Əliyevin 2007-ci ildə verdiyi Sərəncamı ilə qeyd edir. Məhz həmin gün 1998-ci il iyunun 18-də Ulu Öndər Heydər Əliyev ilk «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı»nı təsdiq etmişdir.

İcazə verin, insan hüquqlarının müdafiəçilərini sabahkı bayram münasibətilə təbrik edim.

Azərbaycan dövlət başçısının elan etdiyi «Ekologiya ili»ni yaşayır. Odur ki, «İnsan hüquqları və ətraf mühit: iqlim dəyişikliklərin hüquqi və etik aspektləri» mövzusunda Ombudsmanların 8-ci Bakı Beynəlxalq Konfransı böyük əhəmiyyətə malikdir. Bütün iştirakçılara uğurlar arzulayıram.

«İnsan-Təbiət» münasibətləri ikili xarakter daşıyır. Bir tərəfdən, insan təbiətin istehlakçısı kimi öz maddi və mənəvi ehtiyaclarını ödəmək məqsədi ilə  təbiəti istifadə edir [iqtisadi forma], digər tərəfdən isə özünün yaşamaq hüququnu və yaşayış arealını qoruyub saxlayır [ekoloji forma].

Bəllidir ki, insan fəaliyyəti, antropogen fəallığı, o cümlədən onilliklər boyu davam edən texnoloji tərəqqi planetimizə dağıdıcı təsir göstərir. Geniş miqyaslı çirklənmə və dünyanın mineral və bioloji resurslarının spiralvari artan istehlakı ətraf mühitə presedenti olmayan təzyiqini davam etdirir. İndi bəşəriyyət qarşısında duran ən böyük təhlükələrdən biri iqlim dəyişməsi ilə bağlı gözlənilən nəticələrdir: buzlaqlar tədricən əriyir və məhv olur, torpaqların səhralaşması sürətlə artır, mütəxəssislərin hesablamalarına görə, yalnız Afrikada 2020-ci il ərəfəsində 75 milyondan 200 milyona qədər insan içməli su çatışmazlığı ilə qarşılaşacaq.

Sadalanan və sadalanmayan xoşagəlməz durumlar və problemlər İnsan antropogen fəaliyyətinin nəticəsidir, onun əməyi, intellekti və əqli fəaliyyəti nəticəsində yaranmışdır.

Lakin həmin fəallıq və fəaliyyət nəticələri problemi yaradıbsa, elə onlar özləri də problemin həllini tapmağa qadirdir. Burada iki məsələ xüsusilə diqqəti cəlb edir: birincisi, əqli fəaliyyətin və onun nəticələri olan əqli mülkiyyətin ətraf mühitə mümkün müsbət təsiri; ikincisi, əqli mülkiyyətin ətraf mühitdən asılılığı və qorunması ilə bağlı mənafelər.

Bəşər sivilizasiyasının təkamülünə kiçik bir ekskurs göstərir ki, digər canlılarla müqayisədə İnsanın intellekti və zəkası hesabına olan üstünlüyü onun sürətli fərdi inkişafına səbəb olmuşdur.

Çaxmaq daşından, sümük və ağacdan süni alətlərin yaradılması texnologiyasının qısa müddətdə mənimsənilməsi, ovçuluq sənətinin əldə edilməsi, nəhayət insanın odu özünə tabe etməsi bəşəriyyətin mərhələli nailiyyətlərindəndir.

Bəllidir ki, qədim keçmişdə əcdadlarımızın fərdi inkişafı müəyyən obyektiv səbəblərə görə bir müddət sonra ləngiməyə başlamışdı. Bu, ilk növbədə, qədim insanların ictimai inkişaf naminə fərdi inkişafdan imtina etməsi ilə bağlı idi və belə proses əslində digər canlılara ~~heyvanlara~~ xas olan növlərdaxili mübarizə və aqressivlikdən kooperasiya, əməkdaşlıq xeyrinə imtina demək idi. Bununla da insan evolyusiyasının magistral yolu açılmışdı.

Lakin bilik və əmək vərdişlərini, ictimai təcrübəni əldə etməklə məsələ bitmirdi, eyni zamanda onları qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq da lazım idi. Bunların nəticəsi kimi mənəviyyatın və əxlaqın ibtidai, ilkin formaları yaranmağa başladı ki, bunlar da daşıyıcı şəxslərin qorunmasına yönələrək, qadağaların əmələ gəl-

məsinə şərait yaratmaqla yeni kollektiv yaddaş formalarının yaranmasını sürətləndirdi. Bu ictimai praktikaları qəbul edənlərin varisləri bu gün planetimizdə yaşamaqda davam edir, bunları qəbul etməyənlər isə amansızcasına tarix səhifəsindən silinmişlər.

Beləliklə, sivilizasiyanın yaranmasının əsas səbəbi insan təbiətini "yumşaldan", onun əməkdaşlıq, kooperasiya, ictimai formalara keçməsini stimullaşdıran mənəvi qaydalar və adət-ənənələr olmuşdur. Son zamanlar onların daha çox təbii yolla yaranmasına üstünlük verilir. Bu məsələyə toxunan Devid Yum vaxtilə qeyd etmişdi ki, mənəvi qaydalar və adət-ənənələr insan zəkasının məhsulu deyil. Həmin fikirləri daha da inkişaf etdirən keçmiş yüzilliyin dahi mütəfəkkiri Fridrix fon Xayek də yazırdı ki, bizim sivilizasiya istər öz yaranışı, istərsə də özünü qoruyub saxlaması üçün insan əməkdaşlığına və mənəvi qaydalara borcludur. Bunlar isə insanın düşünülmüş, məqsədli mövqeyinin yox, əksinə, spontan şəkildə, dərk edilmədən, təbii seçmə əsasında yaranan ənənəvi və mənəvi qaydalara riayət edilməsinin nəticəsidir. Deməli, mədəni ənənə nə təbii məhsul, nə də süni törəmə deyildir, genetik şəkildə ötürülmür və rasional təfəkkür nəticəsi kimi də yaranmır.

Zəka və Mədəniyyət paralel olaraq, yarış tipli prosesdə formalaşır və bunlar instinkt və zəkanın arasında yerləşir. İnstinkt adət-ənənələrdən qədim olduğu kimi, adət-ənənələr də zəkadan daha yaşlı, daha qocadır.

İnsanların dərk etmədiyi ənənələr nəsildən-nəslə ötürülməklə yaşamağa qadirdir. Xayekin fikrincə, "bu mənəvi normalara hörmət və ehtiramla yanaşan, onlara riayət edən insan qrupları, nəinki həyatda sadəcə sağ qala biliblər, üstəlik, saylarını da artırıblar". Belə seleksiya seçimi isə həmin davranış qaydalarının səmərəliliyinə və faydalılığının dərk edilməsinə gətirib çıxarmışdır.

Beləliklə, mənəviyyat və ənənə zəka ilə eyni vaxtda inkişaf edərək və seçim prosesini istiqamətləndirərək, öncə instinktlərin təzyiqinə davam gətirmiş, sonradan isə ölçü hissiyyatını itirən Zəkanın hücumlarının qarşısında dura bilmişdir. Bir sözlə, insanları alicənab, mənəviyyatlı edən nə təbiət, nə də zəka olmuşdur, onların bugünkü simasını formalaşdıran və bugünkü sivilizasiyanı mümkün edən ənənə olmuşdur. Ənənələr tərəfindən qoyulan məhdudiyyətlər isə sivilizasiyanın varlığını mümkün etmişdir.

Ənənələrin canlı evolyusiyası heç də insanların onu dəyişməyə qadir olduğunun göstəricisi deyildir. Bununla belə, nəsildən-nəslə ötürülən ənənələr və mədəni dəyərlər genetik vərəsəliklə keçmədiyi üçün hər yeni nəsil onların ötürülüb-yayılmasına qayğı göstərməlidir. Ənənələrin ümumi xəzinəsində olan müsbət və mənfi töhfələr isə konkret fərdlərin payından asılıdır, fərdlərin yaradıcılıq imkanlarıdır.

Beləliklə, ənənələr də təbii yolla, müvafiq coğrafi ərazidə, ekoloji nişada, iqlim, flora, faydalı qazıntılar kimi yaranır və tarixi proseslər onları milli varlığın ən vacib resurs və dəyərli hissəsinə çevirir və qorunmasını zəruri edir.

Mənəviyyat və ənənələrin evolyusiyalı formalaşmasını etologiya və sosiobiologiya elmləri sahəsində aparılan tədqiqatlar da təsdiq edir. Etologiyanın banisi Konrad Lorensin dediyi kimi, bioloji dünyada canlıların hər hansı növü üçün təbiətin verdiyi aqressiya imkanları və onun nümayişinə qarşı çıxan müxtəlif qadağalar arasında balans mövcuddur. İnsanlar üçün isə öncədən qoyulmayan bu təbii qadağanın rolunu mənəviyyat, mənəvi qaydalar yerinə yetirir. Bu isə o deməkdir ki, insan zəkası hesabına yaradılan süni məhvetmə vasitələri və təbii yolla yaranan mənəviyyat arasında saxlanan balans bəşəriyyətin özünü qoruyub saxlaması üçün alət rolunu oynayır.

Sosiobiologiya insanların təbii və sosial keyfiyyətləri arasındakı qarşılıqlı əlaqələr axtarışında bu problemi gen-mədəni koevolyusiyasına gətirir və mədəniyyətin evolyusiyasını insanın biosəviyyəsindəki dəyişikliklərlə izah edir. İnsanların təbii, anadangəlmə qarşılıqlı yardım və əməkdaşlıq keyfiyyətləri gələcəkdə yaranan onun mənəviyyatının özülü kimi təqdim olunur. Özü də vərəsəliklə keçənlər – sosiobioloji, əldə edilənlər isə sosio-mədəni keyfiyyətlər hesab olunur.

Deyilənləri müasir psixologiya elmi da təsdiqləyir. Z.Freydin, Yunqun və E.Frommun şüuraltı, şüursuzluq və fövqəlşüur üzrə tədqiqatları instinkt və mədəni ənənələr və qadağalar arasında yeni baxış formalaşdırmışdır.

Etnologiya elmi və onun baniləri C.Holden və L.Qumilyov da bu məsələyə böyük töhfələr vermişlər. Hər iki alim etnosu sosial kateqoriya, yəni mövcud olmayan kəmiyyət kimi yox, təbii fenomen kimi təsvir edərək, bəşəriyyətin etnos vasitəsilə təbii mühitlə əlaqələrini göstərə bilmişlər. Onların fikrinə əsasən etnoslar – insanların davamlı kollektivləri kimi sistemli struktura malikdirlər, onların yaranması, inkişafı və məhv olması coğrafi mühit və ekoloji nişada baş verən dəyişikliklərlə birbaşa bağlıdır. Daha doğrusu, etnos insanlardan, fəaliyyət məhsullarından, ənənələrdən, yaşayış coğrafi mühitdən və etnik əhatədən ibarət olan sistemdir. L.Qumilyov bu konsepsiyanı inkişaf etdirərək, göstərmişdir ki, etnogenez və təbii seçmə prosesində nəsildən-nəslə ötürülən informasiya ehtiyatlarına münasibətdə tənzimləyici sistem rolunu mədəni ənənə öz üzərinə götürür.

Etnoloqların nəticələrinə əsasən etnogenez mədəni ənənə ilə yönəldilərək coğrafi mühitdə cərəyan etdiyi halda, insan əməyi və iradəsi nəticəsində yaradılan texnogen və sosial mühitdə ictimai-iqtisadi inkişaf baş verir.

Burada başlıcası odur ki, insan təsiri olmadan yaranan coğrafi mühit öz inkişafını təmin edən təbii elementləri özündə saxlayır, halbuki texnogen mühit buna qadir deyil, o yalnız dağılıb məhv ola bilər. Lakin coğrafi mühitə aid olmayan texno- və sosiosfera daim coğrafi məkanla qarşılıqlı əlaqədə olur ki, bu da insan təbiətindən gələn xüsusiyyətlərin nəticəsidir: insan özü landşafta uyğunlaşaraq, landşaftı da öz ehtiyaclarına uyğunlaşdırır.

İnsan yaşadığı areala istehlakçı, hətta vəhşi münasibətinin səbəbi müxtəlif etnosları xarakterizə edən müvafiq davranış stereotiplərindən, yanlış «təbiəti fəth etmək» prinsipindən irəli gəlir. Odur ki, bəşəriyyətin təbiətdən, ətraf mühitdən asılılığı artıq heç kəs tərəfindən inkar edilmir, yanlış «fəth etmə» davranış stereotipləri biosferanın və insan populyasiyasının birgə inkişafı naminə rədd olunur. Çünki artıq hamıya aydın olub ki, biosfera insansız mövcud ola bilər, lakin insan biosferadan kənarda yaşamağa qadir deyildir. Bu cür yanaşma «koevolyusiya» adlanır, yəni insan təbiət proseslərinə fəal müdaxilə etməklə, onun durumunu öz həyatı üçün məqbul saxlayır. Daha dəqiq desək, insan təbiəti özünün daha firavan yaşaması üçün uyğunlaşdıraraq, özü də gələcək inkişaf naminə təbiətə uyğunlaşır.

Bu gün «İnsan-Təbiət» münasibətlərində insan zəkası antaqonizmi, toqquşmanı qəbul etməyərək, insanları əməkdaşlığa, kooperasiyaya, tərəfləri razı salan kollektiv qərarların axtarışlarına və kompromislərin əldə edilməsinə sövq edir. Bu da vaxtilə əcdadlarımızın dərk etdiyi kooperativ, ictimai yaşayış formalarına keçidi təmin edən ibtidai mənəviyyatın yeni inkişaf mərhələsidir.

Beləliklə, ekoloji problematikada Təbiət və Zəkanın maraqları toqquşmayan, ziddiyyətli olmayan mövqedən irəli gələn yeni ekoloji düşüncə və şüur durur. Bu, ilk növbədə akademik N.Moiseyevin dediyi kimi, «ekoloji impe-

rativ»dir, yəni, sadəcə olaraq təbiət qanunları ilə hesablaşmağın obyektiv zəruriliyi ilə yanaşı, təbiət tərəfindən irəli sürülən «texniki şərtlər»i də nəzərə almaq vacibliyidir. Bu cür yanaşma texnokratik yanaşmaya əks olan, ilk növbədə insan ölçüsü olan yanaşmadır.

«Ekoloji imperativ»də isə təbiət – elmi və humanitar yanaşmalar vəhdət təşkil edir və bu səbəbdən həmin imperativin qəbulu «əxlaq-mənəviyyat imperativinin» qəbulu deməkdir. Bu mövqedən çıxış edərək, bir daha qeyd olunmalıdır ki, antropogen fəaliyyət və əqli fəaliyyət nəticələri ekoloji problemin kəskinliyini yaradıbsa, insan zəkası da həmin problemin həllini tapacaq.

BMT kimi dünyanın ən nüfuzlu təşkilatı bunu əsas götürərək, 5 iyun tarixini Beynəlxalq Ətraf Mühit Günü elan etmiş, ÜƏMT isə ekoloji problematikanı prioritet seçərək, 2009-cu ildə 26 aprel – Beynəlxalq Əqli Mülkiyyət Gününü «yaşıl innovasiyalı dəstək» devizi altında keçirmişdir.

Bu devizin mənası ətraf mühitin dəyişməsinə qarşı çıxan texnoloji vasitələrin inkişafı və yayılmasından ibarətdir. Bir sözlə, alternativ enerji mənbələrindən, o cümlədən küləyin gücündən və günəş enerjisindən, geotermal yeraltı su mənbələrdən istifadə olunması, yeni davamlı bitki növlərinin kultivasiyası, ətraf mühitə münasibətdə daha əlverişli materialların yaranması və s. nəzərdə tutulur.

Həqiqətən insanların yaradıcı qüvvəsi və yeniçilik qüdrəti onun tükənməz olan təbii resurslarındadır və həmin qüvvə «bəşəriyyət – ətraf mühit» münasibətlərindəki mövcud incə tarazlığı saxlamağa qadir olan yeganə ümid yerimiz və keçmişdə istifadə olunan və parnik qazları ilə müşayiət edilən boz texnologiyalardan təmiz yaşıl innovasiyalara keçidi təmin edən yeganə imkanımızdır.

13 iyul 2009-cu ildə təşkil olunmuş Beynəlxalq Konfransda edilmiş çıxışlarda da xüsusi vurğulanmışdır ki, bütün kasıb və varlı ölkələr iqlim dəyişikliyinin nəticələrinə məruz qalır və bununla bağlı dövlət siyasətinin məqsədlərinə ƏM-in xüsusi töhfəsi mümkündür. Konfransın fənlərarası xarakteri qarşıda duran problemin mürəkkəbliyini nümayiş etdirərək, iqlim dəyişməsi, epidemiyalar, səhiyyə, əmək məhsullarının təhlükəsizliyi və bioloji müxtəliflik məsələlərinə həsr olunmuşdur.

Ümumdünya Metereoloji Təşkilatının Baş direktoru cənab Mişel Jarronun qeyd etdiyi kimi, ƏM iqlim məsələlərinin həllində maneə yox, katalizator olmalıdır. ÜƏMT-nın Baş direktoru, d-r Frensis Qarri də ekoloji təmiz texnologiyaya və təkrarlanan enerji mənbələrinə keçməyimizdə ƏM-in böyük rolunun olmasını xüsusi qeyd etmişdir. Çünki ƏM sistemi bu səhiyyə innovasiyalarının stimullaşdırılması üçün etibarlı və sınaqdan keçmiş ekoloji təmiz innovasiyaların yaradılmasına vasitələr təqdim edir.

UNESCO-nun müvafiq Konvensiyasında qeyri-maddi mədəni irs kimi səciyyələnən, ÜƏMT-nın sənədlərində «ənənəvi mədəni nümunələr və ənənəvi biliklər» kimi təqdim olunan və qorunub saxlanan qeyri-ənənəvi ƏM obyektlərinin başında mədəni ənənələr durur, bu dünyaya gəldiyimiz gündən və beşikdən başlayaraq son mənzilimizə qədər bizi müşayiət edən də ənənələrdir.

Ənənələrdə etnosun həm təbii-bioloji, həm də yaradıcı – mənəvi gücü və qüdrəti təbiətlə və doğma torpaqla bağlıdır.

Milli təfəkkür və fərdi təəssübkeşlik, etnik dərketmə və fərdi səciyyə, mənəvi dəyərlər və fərdi davranış stereotipləri – bütün bunlar doğma yurdla, əcdadlarla ayrılmaz tellərlə əlaqədədir.

Sadalanan etnoloji və etnoqrafik üzvi əlaqələr: «insan – yaşadığı məkan», «doğma torpaq – bədii şüur»,

«yaradıcı təfəkkür - təbiət» öz əksini adət-ənənələrdə tapır, «milli ruhun arxeologiyası» kimi çıxış edərək, özünəməxsusluğumuzu UNESCO-nun irəli ürdüyü və qoruduğu mədəni müxtəlifliyi yaşadır.

Odur ki, mədəni ənənələrimiz qocalmağa məruz qala bilməyən, canlı, daim inkişafda olan varidatımızdır, bizim elə keçmişimizdir ki, onsuz bu günümüzün gələcəyi yoxdur. Bunlar bizim keçmişimizin tərəqqisidir və bu günümüzün tərəqqisi sabahkı yeni ənənəyə çevriləcək. Təkrarən qayıdaraq, qeyd etməliyik ki, mədəni ənənələrin daxili qüdrəti ilə yanaşı digər böyük gücü də vardır. Son elmi araşdırmalar da göstərir ki, ənənələri cəmləşdirən folklorun və ənənəvi biliklərin təbii yaranma və inkişaf yolu müəyyən ərazidə iqlim, flora, faydalı qazıntıların yoluna bənzəyir və tarixi proses bu ənənələri vacib təbii resursa və milli sərvətin çox dəyərli hissəsinə gətirib çıxarır. Bununla ənənələr nəinki mədəni, eləcə də iqtisadi, ərazi inkişafı alətinə çevrilir. Deməli, folklorun və ənənəvi biliklərin daimi olan mədəni-humanitar vacibliyi ilə yanaşı, onun qorunması əhəmiyyətli dərəcədə sosial-iqtisadi inkişaf aləti olmasından da irəli gəlir. Bu səbəbdən mədəni irsimiz və folklor nümunələrimiz torpaqlarımız kimi qorunmalıdır və gələcək nəsillərə müstəqilliyimizlə birgə çatdırılmalıdır. O bir də ona görə vacibdir ki, ərazilərimizə göz dikən və erməniçiliyin "Böyük Ermənistan" xülyası ilə yaşayan bədnam qonşularımız ərazi iddialarını "əsaslandırmaq" üçün maddi və qeyri-maddi mədəni irsimizə təcavüz edərək, bunu "Azərbaycan mədəni ənənələrinin mənimsənilməsi erməni ənənəsi"nə çevirməkdə davam edirlər.

Beləliklə, ƏM-in ənənəvi növləri təbiətin qorunmasına töhfə verə bilər, digər tərəfdən onun qeyri-ənənəvi formaları elə onun özündən qaynaqlanır və deməli, yaşadığımız coğrafi məkan ətraf mühitlə birgə qorunmalıdır.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.